AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 29

Bakı şəhəri "20" aprel 2016-cı il

**"Gəncə şəhərinin tibb müəssisələri şəbəkəsində dəyişikliklərin edilməsi barədə"**

Gəncə şəhərin tibb müəssisələri şəbəkəsinin təkmilləşdirilməsi, maliyyə vəsaitlərindən səmərəli istifadə olunması məqsədilə və Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin 04 aprel 2016-cı il tarixli 160120202203 nömrəli məktubunu nəzərə alaraq, "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

ƏMR EDİRƏM:

1. Gəncə Şəhər Səhiyyə İdarəsinin tabeliyində olan 1 nömrəli Doğum Evi ləğv olunaraq A.Səhhət adına 1 nömrəli şəhər xəstəxanasının strukturunda doğum şöbəsi yaradılsın.

2. Gəncə şəhər səhiyyə idarəsinin rəisi Ə.Məmmədova tapşırılsın:

2.1. aparılan dəyişikliklərə uyğun olaraq A.Səhhət adına 1 nömrəli şəhər xəstəxanasının strukturu, yeni ştat cədvəli və əsasnaməsi hazırlanaraq müəyyən edilmiş qaydada təsdiq edilsin;

2.2. bu əmrdən irəli gələn maliyyə, kadr və ləğvetmə ilə əlaqədar digər məsələlər həll edilsin.

3. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova həvalə edilsin.

Nazir Oqtay Şirəliyev